# MƏDƏNİYYƏT SİSTEMİNİN ƏNƏNƏLƏR ÜZƏRİNDƏ MÜASİRLƏŞMƏSİ

**Ölkəmizdə davam edən quruculuq işlərinin vüsəti, sosial-iqtisadi və mədəni inkişaf hər bir azərbaycanlının qəlbində qürur hissi oyadır. Bütün mühüm sahələrlə yanaşı, mədəniyyət və turizm istiqamətində görülən tədbirlərin də xüsusi əhəmiyyəti var. Belədə əvvəlki illərin ayrıca bir dönəminə geri qayıtmaq zərurəti də yaranır. Bu, yaddaşın, düşüncənin tələbidir. Bu səbəbdən də etiraf etməliyik: 80-ci illərin sonu, 90-cı illərin əvvəlləri respublikamızın timasalında böhran səviyyəsinədək enən bir durğunluq müşahidə olunurdu. İllərlə davam edən bu durğunluğun müəyyən obyektiv səbəbləri vardısa da, vəziyyətdən çıxış yolları aramaq baxımından cəhdlər hiss olunmurdu. Xoşagəlməz hal idi. Sanki hamı mədəniyyət evlərinin, klublarının, xalq teatrlarının, eyni zamanda kitabxana və dərnəklərin boşalmasına, günlərlə, həftələrlə sükuta qərq olmasına öyrəşirdi. Belə bir vəziyyətin uzun illər boyu davam etməsi təbii narahatçılıq da doğururdu. Elə bu məqamlarda ulu öndər Heydər Əliyevin bir sıra mühüm sərəncamları kənd mədəniyyətinin durğunluqdan çıxmasına ciddi təkan verdi. Əməkhaqlarının artırılmasından tutmuş, maddi bazanın möhkəmləndirilməsinəcən bütün tədbirlər bu istiqamətə yönəldildi. Bundan sonrakı illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məlum Fərman və Sərəncamları, Dövlət Proqramlarında nəzərdə tutulan tədbirlərin icrası rayonlarda mədəniyyət sisteminin nəinki inkişafına, müasirləşməsinə də təminat yaratdı. Respublika Mədəniyyət və Turizm Nazirliyinin kənd mədəniyyəti sisteminin yeni formada fəaliyyətinə diqqət və qayğısı müntəzəm xarakter aldı.**



Bəli, həyatımızın bütün sahələrindəki inkişaf və yüksəliş xalqımızın xoş güzəranı, mədəni və mənalı istirahəti, yaşayışı üçün hesablanır. Bu tərəqqi, bu yüksəliş Azərbaycan Respublikasının adi vətəndaşından tutmuş, onun ali rəhbərliyinə kimi sevinc və qürur bəxş edir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Kürdəmir Regional Mədəniyyət İdarəsinin nümunəvi iş üslubu yeni idarəetmə sistemində diqqəti xüsusi cəlb edir. Məsələ burasındadır ki, Kürdəmir, İmişli, Beyləqan, Füzuli və Xocavənd kimi bir-birindən fərqli ənənələrə malik rayonları birləşdirən regional idarə nəticə etibarilə qarşıya qoyulmuş vəzifələri peşəkarcasına həll etməkdədir. Təbii ki, burada idarəyə rəhbərlik edən Elman Məmmədovun yüksək işgüzarlığı və zəngin təcrübəsi də mühüm rol oynayır. Adları çəkilən region rayonlarında qurulan iş, keçirilən tədbirlər əhalinin mədəni istirahətini daha da mənalandırır, xoş ovqat yaradır.

Regional idarənin fəaliyyətindən, rəngarəng tədbirlərindən söhbət açarkən bütün sualların ümumiləşmiş cavabını təbii ki, daha müfəssəl olaraq idarənin rəisi Elman Məmmədovun özündən eşitsək yaxşıdır. Beləliklə Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Elman Məmmədov maraqlandığımız bütün məsələlər ətrafında idarənin son dövrlərdəki fəaliyyəti haqqında danışır:

- Bilirsiniz ki, Kürdəmir Regional Mədəniyyət İdarəsi Kürdəmir, İmişli, Beyləqan, Füzuli və Xocavənd rayonlarını əhatə edir. Mən əsasən bu rayonlarda yerləşən mədəniyyət mərkəzlərinin fəaliyyətindən, keçirilən müxtəlif tədbirlərdən danışmaq istəyirəm. Azərbaycan Respublikasının Prezidentinin Sərəncamına uyğun olaraq böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300-illik yubleyi ilə əlaqədar olaraq İmişli rayon Mədəniyyət Mərkəzi ilə birlikdə Uşaq Musiqi məktəbi " Xəyalını, xəyalıma saz eylə " adlı teatrlaşdırılmış gecə təşkil etmişdir. Tədbirin ilk təqdimatı 25 aprel 2017- ci il tarixdə İmişli rayon Mədəniyyət Mərkəzində olmuşdur. 24 may 2017- ci il tarixdə Kürdəmir Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Füzuli rayonun Horadiz qəsəbəsində, 04 iyul 2017- ci il tarixdə Bakı şəhəri Rəşid Behbudov adına Mahnı teatrında "Xəyalını, xəyalıma saz eylə " adlı teatrlaşdırlmış gecə Mədəniyyət və Turizm Nazirliyinin işçiləri ilə birlikdə şəhər sakinlərinə təqdim olundu. Tamaşa Nazirliyin əməkdaşları və şəhər sakinləri tərəfindən yüksək səviyyədə qarşılandı.

26 avqust 2017 - ci il tarixində Qəbələ şəhərində V Qəbələ Beynəlxalq Mürəbbə Festivalında da yüksək fəallıq göstərilmişdir. Festivalın yekununa görə Kürdəmir rayonu Beynəlxalq Mürəbbə Festivalının ən fəal rayonu kimi I yer üçün təsis edilmiş qızıl Diplom və medalla təltif olunmuşdur. Rayon I yer üçün nəzərdə tutulmuş xüsusi kubokla mükafatlandırılmışdır. AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran Regional Şöbəsi və Kürdəmir Regional Mədəniyyət İdarəsinin birgə təşəbbüsü və təşkilatçılığı ilə 3 may 2018-ci il tarixdə Kürdəmir rayon Mədəniyyət Mərkəzində Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi Eynulla Cəbrayılovun xatirəsinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir. Gecənin aparıcısı AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran Regional şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı tədbiri açaraq Şirvan musiqi mühitində yetişən Eynulla Cəbrayılovun bu bölgənin ustad sənətkarlarının ənənələrindən bəhrələnərək muğam və aşıq sənətinin sirlərinə yiyələnməsindən, misilsiz ifalarında bu iki sənətin xüsusiyyətlərini qovuşdurmasından danışmışdır.

Mədəniyyət müəssisələrində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr edilmiş müxtəlif səpkili mədəni - kütləvi tədbirlər keçirilmişdir.

Kürdəmir Regional Mədəniyyət İdarəsi tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr edilmiş "Mədəniyyət ongünlüyü"nün tədbirlər planı hazırlanmış və icrası təmin edilmişdir.

Tədbirlər planına əsasən bütün müəssisələrdə guşələr, kitab, foto və rəsm sərgiləri, bədii proqramlar və başqa tədbirlər təşkil edilmişdir.

Klub müəssisələri hər il keçirilən "İstedad" baxış - müsabiqəsində yaxından iştirak etmiş, münsiflər heyəti tərəfindən qaliblər seçilmiş və mükafatlandırılmışdır. Kitabxanalarda kitab sərgiləri, kitab bayramları, muzey tipli müəssisələrdə dəyirmi masalar, ekskursiyalar, Uşaq İncəsənət məktəbində və parklarda konsertlər təşkil edilmişdir.



10 may 2018-ci il tarixdə Kürdəmir rayon N.Nərimanov adına Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə rayonun "Qələbə" parkında "Bu günümüzün ilməsi - keçmişin tarixi" rubrikası altında rayonun məşhur Şilyan xalçalarının sərgisi təşkil olunmuşdur. 23 may 2018-ci il tarixində Kürdəmir Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illiyi münasibətilə tədbir keçirilmişdir. Tədbirdəki çıxışlarda ulu öndər Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını xalqımız üçün tarixi hadisə adlandırdığı diqqətə çatdırılmışdır. Prezident İlham Əliyev tərəfindən də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını xalqın milli oyanışının məntiqi yekunu kimi dəyərləndirildiyi qeyd olunmuşdur.



23 may 2018-ci il tarixdə rayon MKS AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran Regional Şöbəsi ilə birlikdə "Şərqdə ilk demokratik cümhuriyyət" adlı oxucu konfransı təşkil edilmişdir. Tədbirdə müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymasından, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamasından, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 10 yanvar tarixli Sərəncamına əsasən cari ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsinin dövlətimizin başçısının XX əsr tariximizin ən mühüm hadisələrindən olan Cümhuriyyət tarixinə verdiyi yüksək qiymətdən söhbət açıldı. Cümhuriyyətimiz haqqında qısa video sujet, məktəblilərin ifasında Vətən, Bayraq və Müstəqillik haqqında şeirlər, musiqi nömrələri və "Şərqdə ilk demokratik cümhuriyyət" adlı sərgi təqdim edilmişdir.

Tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinin 1918-1920-ci ildən bəhs edən foto çarxı, vətənpərvərlik haqqında mahnılar, M.Ə.Rəsulzadənin "Əsrimizin Şiyavuşu" adlı əsərindən parçalar, 1988-ci il Xalq Azadlıq Hərəkətından bəhs edilən film Ü.Hacıbəylinin "Koroğlu" uverturasının sədaları altında nümayiş etdirilmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Bölgələrdən Bölgələrə "100 illik tariximiz" adlı tədbirə 07 iyul 2018-ci il tarixində Füzuli rayonu ev sahibliyi edib. Tədbir öz fərqli tərtibatı ilə zövq oxşayıb.

17 oktyabr 2018-ci il tarixdə Kürdəmir rayonunda ilk dəfə Kukla tamaşasının təqdimatı keçirilib. Kürdəmir Regional Mədəniyyət İdarəsinin Kürdəmir rayon Mədəniyyət Mərkəzinin nəzdində ilk dəfə fəaliyyətə başlamış Kukla teatrında "Cırtdan" tamaşası əhaliyə təqdim olunmuşdur. Teatr tamaşasına rayon İcra Hakimiyyətinin başçısı, rayona səfərə gəlmiş Latviya Bələdiyyələr ittifaqının nümayəndə heyəti, rayon ictimayyəti və məktəb şagirdləri tamaşa etmişlər.

Regiona daxil olan rayonlarda təşkil olunanın Novruz bayramlarının bədii hissəsi mubadilə yolu ilə keçirilir. 18 mart 2017-ci ildə keçirilən Kürdəmir rayonun ümümrayon tədbirinin bədii hissəsini Füzuli tayon mədəniyyət müəssisələri təşkil etmişdilər.

18 mart 2018-ci ildə isə Beyləqan rayonu Kürdəmir rayonunda Novruz bayramını təşkil etmişdir

Kitabın təbliği, oxucuya daha da yaxınlaşmaq məqsədi ilə tədbirlərin təşkil olunduğu və əhalinin ən çox toplaşdığı yerlərdə, Kürdəmir rayon Mədəniyyət Mərkəzinin foyesində "Kitabı sevək, sevdirək" adlı Açıq kitabxana xidməti təşkil olunub. Həmin Açıq kitabxana xidmətində oxuculara müxtəlif başlıqlar altında ədəbiyyatlar təqdim olunur.

**Kürdəmir rayonunda "Şirvan" instrumental ansamblı, Füzuli rayonunda "Sevinc" rəqs qrupu, İmişli rayonunda "Tamaşa və bədii qiraət" dərnəyi yaradılıb. Xocavənd rayonunda "Bədii qiraət" dərnəyinin fəaliyyəti gücləndirilib. Beyləqan rayonunun Folklor kollektivinin fəaliyyətinə yeni təkan verilib...**

**Məzahir ƏHMƏDZADƏ**